# Bu torpaq igidləri ilə Vətəndir



**_"Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində azərbaycanlıların didərgin salındığı ərazidə aparılan Ermənistan – Azərbaycan müharibəsi ilə bağlı suallara tutarlı arqumentlərlə cavablar verdi. Əvvəllər orada ermənilərlə birgə soydaşlarımızın da yaşadığını, həmin ərazidə azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirildiyini, bunun sovet dövrünün statistikası olduğunu bildirdi". Bu fikirləri "Regional Hüquqi və İqtisadi Maarifləndirmə" İctimai Birliyinin sədri Arzu Bağırova dövlət başçısının müsahibəsinə münasibət bildirərkən dedi:_**

– Prezident müsahibədə 1970-ci illərin sonunda Dağlıq Qarabağ Muxtar Vilayətində əhalinin demək olar ki, 25 faizinin azərbaycanlı olduğunu, soyqırımı törətdikləri Xocalıda 100 faiz soydaşlarımızın yaşadığını dedi. Onların hamısının etnik təmizləməyə məruz qalmasında, didərgin salınmasında heç kimin Ermənistanı günahlandırmadığını və onlara qarşı hər hansı sanksiyalar tətbiq edilmədiyini vurğuladı.

Məlumdur ki, 200 il bundan əvvəl orada, ümumiyyətlə, ermənin olmadığını tarixi faktlar sübut edir. "Mən dəfələrlə demişəm ki, Dağlıq Qarabağda yaşayanların hamısı orada sülh və ləyaqət içində yaşamağa davam edəcəklər. Ermənilər bizim vətəndaşlarımızdır. Azərbaycanın müxtəlif yerlərində, əsasən, Bakıda minlərlə erməni yaşayır. Dağlıq Qarabağda yaşayan ermənilər əmin ola bilərlər ki, onların təhlükəsizliyi təmin ediləcək, onların maddi vəziyyəti daha yaxşı olacaq və onlar bu gün Dağlıq Qarabağdakı xunta rejiminin basqısı altında olduğundan daha yaxşı həyat sürəcəklər".

Jurnalistin üç atəşkəsin pozulduğunu, sülh danışıqlarının heç bir nəticə vermədiyini xatırladaraq, bu məsələdə kimin günahkar olduğu barədə sualına cənab Prezidentin cavabı hazır idi. Çünki o yerdə ki, həqiqət var, fakt var, sübut yetərincədir, orada cavab da hazırdır və özünü gözlətmir. Dövlət başçımız günahkarın Ermənistan olduğunu dedi və əlavə etdi: "Xronologiyaya nəzər salın. Birinci atəşkəs Moskvada razılaşdırılmışdı, 24 saatdan da az vaxt ərzində onlar Ermənistan ərazisindən ballistik raketlə Gəncəyə hücum etdilər. Bu, sübut olunub. Rusiya, Fransa, Amerika Birləşmiş Ştatları və bir çox başqa ölkələr ballistik raketin haradan buraxılmasını aşkar edə bilərlər. Odur ki, onlar raketin Ermənistandan buraxıldığını bilirlər. Paşinyan bunu onlar etməyiblər dedikdə yalan danışırdı. Bu, 24 saatdan az müddətdə baş vermişdir və onlar gecə çox namərdcəsinə hücum etdilər, onlar bilərəkdən yaşayış yerinə hücum etdilər və bu iki hücum nəticəsində demək olar ki, 30 günahsız insan, o cümlədən uşaqlar öldürülmüşdür. İkinci atəşkəs elan olunduqdan beş dəqiqədən sonra onlar tərəfindən pozulmuşdur və üçüncü atəşkəsi onlar Bərdəyə hücum etməklə pozdular". Cənab Prezident, eyni zamanda, jurnalistdən soruşur: "Biz nə etməli idik? Onlar bizi öldürdükdə oturub gözləməli idik? Əlbəttə ki, biz cavab verdik və bunu etməyə davam edəcəyik".

Əslində, bu, bir həqiqətdir ki, Ermənistana atəşkəs öz təcavüzlərini davam etdirmək, ordumuzun azad etdiyi torpaqları geri alıb və yenidən işğal etməyə cəhd etmək üçün lazım idi. Həmin vaxtdan istifadə edərək, mülki şəxslərə hücum etməklə, Azərbaycanda, həm də xaos və panika yaratmaq istəyirdilər. Lakin dövlət başçımızın qeyd etdiyi kimi, onlar Azərbaycan xalqının ruhunu düzgün hesablaya bilməmişdilər. Doğrudur ki, bu namərd hücumlar nəticəsində 91 nəfər mülki şəxs öldürüldü və 400-dən çox adam yaralandı. Lakin bu, bizim iradəmizi sındırmadı. Əksinə, bizim daha sıx birləşməyimizə imkan yaratdı.

İtalyan müxbirin üç həftə bundan qabaq görüşdüyü baş nazir Paşinyanın Dağlıq Qarabağda yeni soyqırımının olmasından qorxduğu fikrinə Azərbaycan Prezidenti qəti cavab verdi: "Tamamilə yalandır. Onların bütün tarixi yalandır. Bunun heç bir əlaməti yoxdur. Mən dedim ki, Azərbaycanda minlərlə erməni yaşayır. Ermənistanda və ya Dağlıq Qarabağda yaşayan heç bir azərbaycanlı yoxdur. Ermənistan əhalisinin 99 faizi etnik ermənilərdir".

Sonra dövlət başçımız Azərbaycanın multietnik, çoxkonfessiyalı ölkə olduğunu qeyd etdi. Buna görə dırnaqarası soyqırımı haqqında danışmağın tamamilə qəbuledilməz olduğunu bildirdi. Əlavə etdi ki, onların həmişə özlərini əziyyət çəkən, həmişə ağlayan, həmişə köməyə ehtiyacı olan insanlar kimi təqdim etmək istədiklərini hamı görür. Ona görə müəyyən dəstəyi əldə etmək üçün hər bir feyk üsuldan istifadə etməyə çalışırlar. Dağlıq Qarabağda yaşayan ermənilər əmin ola bilərlər ki, onların təhlükəsizliyi təmin olunacaq.

Prezident İlham Əliyev müsahibədə qəti olaraq bildirdi ki, müharibə nə qədər tez qurtarsa, bir o qədər də yaxşı olar. Ermənistanın baş naziri yerdə qalan ərazilərin boşaldılacağına dair üzərinə öhdəlik götürsə, biz bu gün dayanmağa hazırıq. Hələ ki, o, üzərinə belə bir öhdəlik götürməyib. Onların kompromisi BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və əsas prinsiplərin icrasına müvafiq olaraq işğal olunmuş bütün ərazilərin boşaldılması olmalıdır. Əsas prinsiplərdə deyilir ki, əvvəlcə beş rayon, sonra da iki rayon boşaldılmalıdır. Biz artıq dörd rayonu birtərəfli qaydada azad etmişik. Buna görə də o, deməlidir ki, qoşunlarını Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal altında qalmış ərazilərindən geri çəkəcəkdir. Lakin o, bəyanat vermir. Bu, onu göstərir ki, o, müharibənin dayanmasını istəmir.

Bütün xalqımız müharibənin tezliklə və qələbə ilə bitməsini səbirsizliklə gözləyir. Qoy, bu Vətən müharibəsində gecə - gündüz cəbhədə vuruşan, zəfər çalan övladlarımız sağ-salamat ailələrinə dönüb başı dik gəzsinlər. Biz də onlara baxıb fəxr edək, "Bu torpaq igidləri ilə Vətəndir!" -- deyək!

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 6 noyabr.- S.3.